Şəki ilə qardaşlaşmış şəhərlər sırasına daha biri - Fransanın Kolmar şəhəri də əlavə olundu. Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və hümanitar məsələlər şöbəsinin müdiri Zərinə Cavadova bildirdi ki, ümumiyyətlə, Şəkinin qardaşlaşdığı şəhərlərin coğrafiyası genişdir. Bunların sırasına Türkiyənin Giresun, Lapseki, Məram şəhəri, Gürcüstanın Telavi, Bolqarıstanın Qabrovo, Belarusun Slutsk, Ukraynanın Jmerinka şəhərləri daxildir. Onların ardından Kolmar şəhəri ilə qardaşlaşma da müsbət addımdır.



# Şarl de Qoll hərəkatının üzvü Azərbaycanı və Şəkini Fransada olduğu kimi tanıdır

## *Şəki ilə Fransanın Kolmar şəhərləri arasında dostluq və əməkdaşlıq xartiyasının imzalanması münasibətlərin daha da yaxşılaşmasına şərait yaradır*

Bu qardaşlaşmanı rəsmiləşdirmək üçün Kolmar şəhərinin meri Jilber Meyerin rəhbərlik etdiyi nümayəndə heyəti Şəkidə olub. Heyətin tərkibinə meriyanın nümayəndələri, Fransanın ölkəmizdəki səfirliyinin məsul əməkdaşları və bu ölkədən gəlmiş digər qonaqlar qatılıb.

Qonaqlar əvvəlcə "Yuxarı baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisini gəzərək buradakı tarixi abidələri ziyarət ediblər. Eyni zamanda Şərq memarlığının nadir incisi hesab olunan Şəki xanlarının sarayı ilə tanış olublar. Fransalı qonaqlar həmçinin Kiş kəndindəki qədim alban məbədini də ziyarət ediblər. Qonaqlar İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Fransa Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri Əhmədiyyə Cəbrayılovun Şəki şəhərindəki ev-muzeyində də olublar. Sonra "Şəki Palas" hotelində Şəki ilə Kolmar arasında dostluq və əməkdaşlıq xartiyasının imzalanması mərasimi keçirilib.

Sənədi Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov və Kolmar şəhərinin meri Jilber Meyer imzalayıblar. Sonra tərəflər qardaşlaşmış şəhərlərin tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə qısa təqdimatla çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Şəki ilə Kolmar arasında əlaqələrin təməli 2013-cü ilin iyununda qoyulub. Həmin dövrdə Kolmar şəhər merinin başçılıq etdiyi nümayəndə heyəti Şəkiyə səfər edib, şəhərlə yaxından tanış olub. Səfərin nəticəsi olaraq bu şəhərlər arasında əlaqələrin daha da genişləndirilməsi qərara alınıb.

Bildirilib ki, Şəki Azərbaycanın ən qədim və gözəl tarixi şəhərlərindən biridir. 181 min nəfər əhalisi olan rayonun iqtisadiyyatında kənd təsərrüfatı, həmçinin ipəkçilik sənayesi əsas yerlərdən birini tutur. Şəki həm də ölkənin turizm mərkəzlərindən biridir. Hər il bu şəhərə 100 min nəfərdən çox turist gəlir. Diqqətə çatdırılıb ki, Şəkidə dövlət qeydiyyatına götürülmüş 84 tarix və mədəniyyət abidəsi var və Azərbaycanda festivallar şəhəri kimi də tanınır. Təkcə ötən il bu şəhərdə 4 beynəlxalq festival keçirilib.

Jilber Meyer Şəki ilə Kolmar arasında bir çox oxşar cəhətlərin olduğunu diqqətə çatdırıb. Şəkini Qafqazın mirvarisinə bənzədən qonaq şəhərlər arasında dostluq xartiyasının imzalanmasından böyük qürur hissi keçirdiyini vurğulayıb. Bildirilib ki, Kolmar da Şəki kimi turist şəhəridir. Hər il bu şəhərə 3,5 milyon nəfərə yaxın turist gəlir. Kolmar həm də festivallar şəhəridir. Bu şəhərdə hər il 3-4 beynəlxalq festival keçirilir. Mer qeyd edib ki, indiyədək Kolmar 7 şəhərlə dostluq xartiyası imzalayıb. Sevindirici haldır ki, Şəki də artıq qardaşlaşmış şəhərlər sırasına daxil edilib.

Kolmar şəhərinin meri xatırladıb ki, general Şarl de Qoll vaxtilə Azərbaycanda olub. O özü də Şarl de Qoll hərəkatının üzvlərindəndir. 2013-cü ildə Şəkiyə gələrkən fransız dilini tədris edən müəllimlərin necə ürəklə çalışdıqlarını da görüb. Təbii ki, bütün bu amillər şəhərlər arasında dostluq əlaqələrinin yaradılmasına təkan verib.

Mer bildirib ki, insanların siyasi baxışları müxtəlifdir və onlara başqa cür düşünməyi qadağan etmək olmaz. Onun rəhbərlik etdiyi meriya şurasında da 4 nəfərin müxtəlif siyasi partiyaların üzvü olmasına baxmayaraq, hamı Şəki ilə əməkdaşlığa yekdilliklə səs verib. Jilber Meyer deyib: "Sevinirəm ki, mən Azərbaycanı, eləcə də Şəkini olduğu kimi tanıda bilmişəm və bunun sayəsində də onlar Azərbaycanla əməkdaşlığı böyük məmnuniyyətlə qəbul etdilər".

Qeyd edək ki, bu iki şəhər arasındakı qardaşlaşmanın təməli hələ 3 il əvvəl qoyulmuş olsa da, qarşılıqlı münasibətlər zamanla öz səmərəsini verib. Nəticə isə nəhayət ki, keçən il xartiyanın imzalanması ilə yekunlaşıb. Beləliklə də yeni mərhələnin əsası qoyulub. Bu il isə Şəki Şəhər İcra Hakimiyyətinin və bir sıra qurumların nümayəndələri Kolmarda olublar. Bu dəfə də tərəflər hələ ki bir-birindən öyrənməli çox şeyin olmasına əminliklərini ifadə ediblər.

***Ə.XASAYOĞLU,***
***"Azərbaycan"***